AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 9/9

Bakı şəhəri 29 iyun 2016-cı il

AMEA-nın "Riyaziyyat və Mexanika İnstitutunun Əsərləri" jurnalının Tomson Reyters agentliyinin "Emerging Sources Citation Index" siyahısına daxil edilməsi haqqında

AMEA-nın Rəyasət Heyəti Riyaziyyat və Mexanika İnstitutunun direktoru, riyaziyyat üzrə elmlər doktoru Misir Mərdanovun AMEA-nın "Riyaziyyat və Mexanika İnstitutunun Əsərləri" jurnalının Tomson Reyters agentliyinin "Emerging Sources Citation Index" siyahısına daxil edilməsi haqqında məlumatını dinləyərək qeyd edir ki, son illər Akademiyada həyata keçirilən islahatlar nəşr olunan elmi jurnalların beynəlxalq tələblərə uyğunlaşdırılması sahəsində də öz müsbət nəticələrini verməkdədir. Məhz bunun nəticəsidir ki, AMEA-nın "Riyaziyyat və Mexanika İnstitutunun Əsərləri" jurnalı (2016) Tomson Reyters agentliyinin "Emerging Sources Citation Index" siyahısına daxil edilmişdir. Emerging Sources Citation İndex tərəfindən jurnallar İmpakt faktor mənimsəməsi üçün izlənilir. AMEA-nın "Riyaziyyat və Mexanika İnstitutunun Əsərləri" jurnalı uzun illik tarixi ənənələrə malik nüfuzlu jurnaldır və AMEA-nın institutları sırasında ilk olaraq bu nailiyyət əldə edilmişdir.

Qeyd olunanları və AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru, riyaziyyat üzrə elmlər doktoru Misir Mərdanovun məlumatını dinləyərək Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru, riyaziyyat üzrə elmlər doktoru Misir Mərdanovun "Riyaziyyat və Mexanika İnstitutunun Əsərləri" jurnalı Tomson Reytersin bazasına daxil edilməsi haqqında məlumatı bəyənilsin.
2. Bu sahədə əldə olunmuş təcrübənin AMEA-nın digər elmi müəssisə və təşkilatlarında yayılması üçün zəruri tədbirlər görülsün.

3. AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr və elmin populyarlaşdırılması idarəsinə (Zülfüqar Fərzəliyev) tapşırılsın ki, AMEA-nın "Riyaziyyat və Mexanika İnstitutunun Əsərləri" jurnalının Tomson Reyters agentliyinin "Emerging Sources Citation Index" siyahısına daxil edilməsi haqqında məlumat KİV-də işıqlandırılsın.
4. Qərarın icrasına nəzarət AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin akademik-katibi, AMEA-nın müxbir üzvü Nazim Məmmədova tapşırılsın.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev